ədalət 2019.- 17 may.- S.4.

# QAX: NƏ GÖZƏL DUYĞUDUR SEVİNC BƏXŞ ETMƏK...

**(əvvəli ötən saylarımızda)**

**Rayon Gigiyena və Epidiomologiya Mərkəzi tərəfindən hesabat dövründə peyvəndlərin tətbiqinə daim nəzarət olunmuş və rayonun müalicə profilaktika müəssisələrinə praktik köməklik göstərilmişdir.**

Hesabat dövründə Rayon Mədəniyyət şöbəsi Bakı şəhəri Dənizkənarı Milli Parkda təşkil olunan sərgidə rayonu təmsil etmiş, həmçinin mədəniyyət müəssisələrində tarixi günlər, bayramlar, yubileylər, sərgilər, konfranslar və dəyirmi masalar keçirilmiş, kompozisiyalar hazırlanmışdır.

Rayon Gənclər və İdman İdarəsi hesabat dövründə iş planına uyğun olaraq aidiyyəti qurumlarla əlaqələri daha da genişləndirərək rayonda bədən tərbiyəsi və idmanın kütləviliyinin artırılması sahəsində məqsədyönlü tədbirlər həyata keçirmişdir.



Ölkə gənclərinin vətənpərvərlik, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunması, dünyagörüşünün daha da zənginləşdirilməsi məqsədi ilə respublikamızın şəhər və rayonlarında yaşayan məktəblilərin digər bölgələrə səyahətinin təşkilinə dair Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi altında maarifləndirici tur-aksiyada cari ilin 15-18 mart tarixlərində rayonun ümumtəhsil məktəblərinin 40 nəfər X-XI sinif şagirdlərindən və 5 nəfər müşahidəçidən ibarət qrup Şəmkir, Göygöl və Gəncə şəhərlərində olmuşdur. Tur-aksiya çərçivəsində Şəmkir şəhərində keçirilən "Nə? Harda? Nə zaman?" bilik yarışmasında rayonumuzu təmsil edən 2 komanda müvafiq olaraq birinci və üçüncü yerləri tutmuşdur.

Hesabat dövründə Dövlət Sosial Müdafiə Fondu Qax rayon şöbəsində "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yaşa görə 92 nəfərə, əlilliyə görə 5 nəfərə və ailə başçısını itirməyinə görə 5 nəfərə əmək pensiyası təyin olunmaqla ümumilikdə 102 nəfərə əmək pensiyası təyin olunmuşdur. 01 aprel 2019-cu il tarixə şöbə üzrə uçotda olan pensiyaçıların sayı 8238 nəfər olmuşdur ki, bunlardan 5787 nəfəri yaşa görə, 1908 nəfəri əlilliyə görə və 543 nəfəri ailə başçısını itirməyinə görə əmək pensiyası alan şəxs olmuşdur.

Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2019-cu tarixli müvafiq sərəncamına əsasən 2018-ci il üzrə orta aylıq nominal əmək haqqının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq cari ildə rayon üzrə 7915 nəfərin əmək pensiyaları indeksləşdirilərək artırılmış və artırılmış məbləğlərlə əmək pensiyalarının vətəndaşlara ödənilməsi təmin olunmuşdur.

"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq cari ilin 3 ayı ərzində şöbədə yaşa görə 38 nəfərə, əlilliyə görə 18 nəfərə, ailə başçısını itirməyinə görə 2 nəfərə aylıq sosial müavinət və 6 nəfərə Prezident təqaüdü təyin olunmuşdur. Çernobıl AES-də baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması zamanı zərər çəkmiş 12 nəfərə müalicə üçün birdəfəlik müavinət ödənilmişdir. 01 aprel 2019-cu il tarixə şöbə üzrə 3014 nəfər sosial müavinət və 428 nəfər təqaüd alan şəxs olmuşdur.

Cari ilin birinci rübündə Qax Rayon Məşğulluq Mərkəzində 559 nəfər işaxtaran kimi qeydiyyata alınmışdır. Qeydiyyata alınanların 16 nəfəri struktur dəyişikliyi ilə əlaqədar işdən azad olunan, 25 nəfəri kadr axıcılığı nəticəsində işdən azad olunan, 1 nəfəri hərbi xidmətdən tərxis olunan, 4 nəfəri cəzaçəkmə yerlərindən azad olunan, 407 nəfəri digər səbəblərdən işdən azad olunan, 106 nəfəri isə əmək fəaliyyəti ilə məşğul olmayan şəxslər olmuşdur. Qeydiyyata götürülənlərin 48 nəfəri ali, 42 nəfəri orta-ixtisas, 48 nəfəri ilk peşə-ixtisas, 1 nəfəri ibtidai, 3 nəfəri ümumi orta və 417 nəfəri isə orta təhsili şəxs olmuşdur. Rüb ərzində 5 nəfərə işsizliyə görə sığorta ödənişi təyin olunmuşdur.

Qeyri-məşğul əhalinin haqqı ödənilən ictimai işlərə cəlb edilməsi məqsədilə rüb ərzində sosial xidmətlərin göstərilməsi üzrə 5 nəfər, ərazilərin ekoloji sağlamlaşdırılması üzrə 15 nəfər, mənzil-kommunal xidməti üzrə 12 nəfər və ictimai xarakterli digər istiqamətlər üzrə 188 nəfər işlə təmin olunmuşdur. Hesabat dövründə Qax Elektrik Şəbəkəsi tərəfindən 12 ədəd transformator yarımstansiyası cari təmir olunmuş, 2 ədəd yeni ayrıcı quraşdırılmış, 24 ədəd 10 kV-luq, 34 ədəd 0,4 kV-luq dayaq dəyişdirilmişdir. Elektrik xətlərinin mühafizə zonasının 10.3 km hissəsi təmizlənmiş, 93 ədəd yeni sayğac quraşdırılmış, 1085 ədəd sayğac isə yenisi ilə əvəz olunmuşdur.



Əlibəyli kəndində 0,4 kV-luq şəbəkənin yenidənqurulması işləri çərçivəsində 41 ədəd yeni 0,4 kV-luq metal boru dayaq basdırılmış, 111 ədəd sayğac dəyişdirilmiş, 5686 metr uzunluğunda yeni SİP kabel xətti və 1100 metr uzunluğunda A-35 markalı yeni naqil çəkilmiş, hazırda işlər davam etdirilir.

Zaqatala Regional Qaz İstismarı İdarəsinin Qax sahəsi tərəfindən hesabat dövründə qaz sayğaclarının əvəzlənməsi, küçə xətlərinə çıxarılması işi davam etdirilərək 25 sayğac küçə xəttinə çıxarılmış, 55 ədəd qaz sayğacı yenisi ilə əvəzlənmiş, 53 ədəd smartkart tipli sayğac quraşdırılmışdır. Rüb ərzində 53 mənzilə qaz çəkilişi aparılmışdır.

Qax Sukanal İdarəsi tərəfindən hesabat dövründə 5828 abonent olmaqla 14114 nəfər içməli su ilə təmin olunmuşdur. İdarə tərəfindən xidmət göstərilməsi məqsədilə 13 büdcə, 22 respublika, 168 kommersiya və 37 sənaye təşkilatı ilə müqavilə bağlanılmışdır. Rüb ərzində idarə tərəfindən 74 ədəd su sayğacı quraşdırılmaqla rayon üzrə quraşdırılmış su sayğaclarının ümumi sayı 5265-ə çatdırılmışdır.

Cari ilin birinci rübündə Qax Kommunal Müəssisələri Kombinatı tərəfindən məişət tullantılarının daşınmasına dair bağlanmış müqavilələr əsasında 1813 təsərrüfat subyektinə, kommunal evlərdə yaşayan 682 abonentə, 315 sahibkara, 30 idarə, müəssisə və təşkilata müvafiq xidmətlərin göstərilməsi təmin edilmişdir. Şəhər ərazisində abonentlərə xidmət üçün 2 qutu, 15 xüsusi yer və 147 konteyner ayrılmışdır. Rüb ərzində 4600 m3 həcmində bərk məişət tullantılarının poliqonda zərərsizləşdirilməsi təmin edilmişdir. Kombinat tərəfindən hesabat dövründə şəhərin 70 küçə və prospektini, eləcə də 11 park və bağını əhatə edən 2484 ədəd nöqtənin işıqlandırılması təmin olunmuş, həmçinin şəhərin küçə və parklarında 15 ədəd ağac, 2000 ədəd çiçək əkilmiş, 250 m2 sahəyə çəmən toxumu səpilmişdir.

Hesabat dövründə təsdiq olunmuş qrafikə uyğun olaraq rayon İcra Hakimiyyəti başçısı tərəfindən rayonun 13 yaşayış məntəqəsində səyyar qəbul keçirilmişdir. Səyyar qəbullarda iştirak etmiş 651 vətəndaşdan 61 müraciət daxil olmuşdur. Daxil olmuş müraciətlərlə bağlı aidiyyəti xidmət təşkilatlarına müvafiq tapşırıqlar verilməklə icrası nəzarətə saxlanılmışdır.



**Yığıncağın sonunda deyilmişir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı proqram xarakterli çıxışından irəli gələn vəzifələri yerinə yetirmək üçün rayonun bütün potensial imkanları səfərbər edilərək 2019-cu il uğurla başa vurulacaqdır...**

**Məzahir ƏHMƏDZADƏ**